# SƏNƏD QƏBULU PROSEDURUNUN TƏQVİMİ

## 2025-ci tədris ili

**QEYDİYYAT ÜÇÜN** ÉTUDES EN FRANCE

| Sənəd qəbulu proseduru | Təhsil dərəcəsi | Sənəd qəbulu açıq elan olunur | Müraciət üçün son tarix | Müsahibələr üçün son tarix | Ali təhsil müəssisələrinin cavabları | Son seçim |
|---|---|---|---|---|---|---|
| **DAP** - İlkin Qəbul Müraciəti (Bakalavrın 1-ci kursu üçün) | Bakalavr I kurs | **1/10/2024** | 15/12/2024 | 15/3/2025 | 30/4/2025 | 31/5/2025 |
| **Hors-DAP** - İlkin Qəbul Müraciətindən kənar (Bakalavrın 1-ci kursu istisna olmaqla) | Texnologiya üzrə Universitet Bakalavrı (BUT)<br>Bakalavr II kurs<br>Bakalavr III kurs / Peşəyönümlü bakalavr<br>Magistratura I/II kurs<br>biznes məktəbi<br>mühəndislik məktəbi | **1/10/2024** | 15/1/2025 | 15/3/2025 | 30/4/2025 | 31/5/2025 |
| **Digər hallar (hazırlıq sinifləri, peşəyönümlü və/və ya incəsənət təhsili)** | BTS (Ali Texniki Diplom)<br>CPGE (Hazırlıq sinifləri) | Məlumat almaq üçün parcoursup Entrez dans l'enseignement supérieur | | | | |
| | CampusArt | Məlumat almaq üçün CAMPUSART PROMOTION DES ÉTUDES D'ART ET D'ARCHITECTURE | | | | |

AMBASSADE DE FRANCE EN AZERBAÏDJAN
Liberté Égalité Fraternité

CAMPUS FRANCE AZERBAÏDJAN

INSTITUT FRANÇAIS Azerbaïdjan

FRANCE ALUMNI Azerbaïdjan

bakou@campusfrance.org
051 207 02 95

ÉTUDES EN FRANCE **PROSEDURUNUN**

CAMPUS FRANCE AZERBAÏDJAN

# ƏSAS MƏRHƏLƏLƏRİ

## 1 Məlumatlar və istiqamət – Təhsil planı

Müraciət edən şəxs təhsil planını hazırlayaraq bütün şansları öz tərəfinə qoymalıdır. Hansı ixtisas? Hansı müəssisə? Hansı təhsil dərəcəsi? Hansı peşəni seçməli? Təhsilimi necə maliyyələşdirmək olar? Harada qala bilərəm? Viza almaq üçün tələb olunan maliyyə tələblərinə cavab verdiyimi yoxlayıram. Bu suallara mümkün qədər yaxşı cavab verə bilməyim və aydın və ardıcıl bir təhsil-iş planına sahib olmağım üçün Campus France saytından da məlumat alıram.

Təhsil planınız güclü və məqsədyönümlüdürsə, aşağıdakı mərhələlərə keçid edin!

## 2 Onlayn formada şəxsi kabinetin yaradılması

Etudes en France platformasına daxil olaraq şəxsi kabinetinizi yaradın : https://pastel.diplomatie.gouv.fr. « Qeydiyyatdan keçmək » hissəsinə daxil olun və menyudan « Campus France Azərbaycan mərkəzi »ni seçin.

**Diqqət !** Səhifənin aşağısında « Digər » hissədə « Fransada təhsillə bağlı məlumatları şəxsi elektron poçtum vasitəsilə almağı təsdiq edirəm » yazısının üzərinə klikləməyi unutmayın. Beləliklə bütün xəbərdarlıqları e-mail vasitəsilə alacaqsınız (müraciətinizin təsdiqlənməsi, müsahibə üçün görüş, universitetlərin qərarı, qeydiyyat haqqının ödənilməsi və s.).

Daha sonra şəxsi məlumatlarınızı daxil edin. Bu mərhələ üçün aşağıdakı sənədləri təqdim etməlisiniz :

- şəxsiyyətinizi təsdiq edən sənəd (pasport, şəxsiyyət vəsiqəsi, doğum şəhadətnaməsi),
- peşəkar üslubda normalara uyğun yeni çəkilmiş şəkliniz,
- təsdiq mesajı və qorumalı olduğunuz dosye nömrənizi ala bilməyiniz üçün aktiv elektron poçt ünvanı

## 3 Dosyenin doldurulması

Dosyenizin qalan hissəsini tamamlamaq üçün:

- şəxsiyyətinizi təsdiq edən sənəd (pasport, şəxsiyyət vəsiqəsi, doğum şəhadətnaməsi)
- son aldığınız akademik nəticələr/diplomlar,
- peşəkar üslubda normalara uyğun yeni çəkilmiş şəkliniz,
- CV-niz.

Öncədən qeydiyyatdan keçmək istədiyiniz müəssisələri seçin və yazın :

- hər ixtisas üçün ayrıca motivasiya məktubu.

## 4 Dosyenin onlayn təqdim olunması və qeydiyyat haqqının ödənilməsi

Tam və düzgün olduğunu təsdiqlədikdən sonra sənədinizi onlayn olaraq təqdim edirsiniz.
Daha sonra Campus France Azerbaycan-a 100 AZN məbləğində qeydiyyat haqqı ödənilməlidir (Azərbaycan Fransız İnstitutunun binası, Füzuli küçəsi, 67, AZ1014, Bakı).
Lazımi məlumatlar sizə e-poçtla çatdırılacaq.
Bu ödəniş ödənildikdə, Campus France komandası sənədinizi təsdiqləmək üçün yoxlayacaq.
**Xəbərdarlıq!** Sənədləriniz natamamdırsa, təsdiqlənməyəcək və düzəliş üçün sizə xəbərdarlıq ediləcək (bu səbəbdən e-poçtlarınızı tez-tez yoxlamağınız vacibdir).

## 5 Qiymətləndirmə müsahibəsi

Sənədləri Campus France Azərbaycan tərəfindən təsdiqlənmiş bütün namizədlər qiymətləndirmə müsahibəsinə çağırılacaq. Təhsil layihənizin Campus France -a təqdim edilməsi çox vacib bir addımdır. Bu müsahibə, namizədə şəxsi layihəsini təqdim etmək, seçimlərini və motivasiyalarını izah etməyə imkanı verir. Əvvəlcədən hazırlaşmaq lazımdır.
Müsahibənin sonunda namizədin dosyesi birbaşa elektron şəkildə seçilmiş təhsil müəssisələrinə göndərilir.

## 6 İlkin düzəliş və təsdiqlənmə

Təhsil müəssisələri təhsil səviyyəsindən asılı olaraq 2025-ci ilin mart-aprel ayları arasında müraciətləri təhlil edir.
Bir təhsil müəssisəsindən qəbul aldıqdan sonra son seçimi « Études en France » hesabında qeyd etmək lazımdır. Qeydiyyat şəhadətnaməsini yükləyin. Daha sonra sertifikatınızın etibarlı olması üçün Campus France -da möhürlədin.
Heç bir təhsil müəssisəsindən müsbət cavab almasanız, prosedur bu mərhələdə dayanır. Campus France Azərbaycan, müraciətinizin rədd edilməsi və ya qəbul edilməsi ilə bağlı qərar vermək səlahiyyətinə malik deyil.

## 7 Viza müraciəti

Vizanın alınması üçün lazım olan addımları atın. Buna əvvəlcədən hazırlaşın. Campus France viza müraciəti proseduruna məsuliyyət daşımır və bu səbəbdən də ərizənizin qəbul edilməsi və ya rədd edilməsi ilə bağlı qərar vermək səlahiyyəti yoxdur. Bu müraciət müstəqil şəkildə aparılmalıdır və bu məsələyə Fransa Konsulluğu tərəfindən ayrıca baxılır.
**Xəbərdarlıq!** Təhsil müəssisəsinə qəbul olmaq, vizanın avtomatik alınması demək deyil. Müraciət sənədləriniz tələblərə cavab verməlidir (maliyyə zəmanəti, mənzil və s.).